**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BAZAR MEXANİZMİNİN MİLLİ İQTİSADİ XÜSUSİYYƏTLƏRİ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5307.01 – İqtisadi nəzəriyyə

Elm sahəsi: İqtisad

İddiaçı: **Ramal İrşad oğlu Kərimov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları və iqtisadi fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Hacıağa Baxış oğlu Rüstəmbəyov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Qabil Nadir oğlu Manafov** |
| | iqtisad elmləri doktoru, professor<br>**İsa Hüseyn oğlu Alıyev** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Fikrət Əhməd oğlu Rəhimli** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA İqtisadiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | iqtisad elmləri doktoru, professor<br>**Nazim Müzəffərli (İmanov)** |
| Dissertasiya şurasının elmi katibi: | iqtisad üzrə fəlsəfə doktoru<br>**Sevda Məmməd qızı Seyidova** |
| Elmi seminarın sədri: | iqtisad elmləri doktoru<br>**Fuad Əlinağı oğlu Qənbərov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir ölkənin iqtisadiyyatının sektorlar, sahələr üzrə bölgüsü ümumi prinsiplərlə yanaşı ölkələrin özünəməxsus spesifik xüsusiyyətlərə də malik olurlar. Belə xüsusiyyətlər sırasında milli iqtisadi mənafelər, bunları şərtləndirən adət-ənənələr, mental cəhətlər, maraqlar, vərdişlər xüsusi yer tutur. Bütünlükdə iqtisadiyyatın, ayrılıqda isə onun real və maliyyə sektorlarının mərkəzində dayanan bazar mexanizmi də belə xüsusiyyətlərlə əhatələnir və inkişaf edir.

Bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin tədqiq edilməsi həm ölkə miqyasında iqtisadi siyasətin forma və metodlarının daha da təkmilləşdirilməsi, həm də bazar subyektlərinin fəaliyyətinin məqsədli əlaqələndirilməsini təmin etmək üçün tələb olunur. Milli tranzitin iki aspekti olan iqtisadi və siyasi modernləşmə transformasiya olunan cəmiyyətin ümumi iqtisadi qanunauyğunluqları və yerli mühitin formalaşması şəraitində bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin sistemli xarakteristikasının verilməsi xüsusi aktuallıq kəsb edir, dissertasiya tədqiqatının nəzəri və təcrübi əhəmiyyətini müəyyən edir.

Dissertasiya işində milli iqtisadi inkişaf prosesinin hərəkətverici qüvvəsi qismində milli xüsusiyyətli bazar mexanizmi öyrənilir və bu mexanizmin özünə isə ölkə əhalisinin tələbatının ödənilməsi prizmasından baxılır. Burada ölkə əhalisinin təsərrüfat həyatının sosial-mədəni mühiti fərqli xüsusiyyətlər kəsb edir, onların istehlakının strukturunun spesifikliyi, istehsal-əmək ənənələrinin orijinallığı özünü göstərir.

Bazar mexanizmini və onun struktur elementlərinin sistemli elmi təhlilini ingilis siyasi iqtisadının klassikləri A.Smit, D.Rikardo, V.Petti, neoklassik məktəbin yaradıcısı A.Marşal, Avstriya iqtisad məktəbinin nümayəndələri K.Menqer, F.Vizer, neoklassik sintezin tərəfdarları C.Xiks, P.Samuelson və neoliberal nəzəriyyəçilər M.Fridmen, L.Erxard, F.Xayek və başqaları kifayət qədər araşdırmışlar. K.Marks bazar mexanizmini marksist metodologiya istiqamətində təhlil etmiş və lazımi nəticə çıxarmışdır. Lakin ölkə iqtisadiyyatının, onun başlıca sferalarının milli xüsusiyyətləri

probleminə ilk dəfə dəqiq və yığcam diqqət verən Fridrix List olmuş, xalqların həyatında millilik cəhətlərini ön plana çıxarmışdır.

Azərbaycanın müasir iqtisadi inkişaf prosesinin, onun mərkəzində dayanan iqtisadi inkişaf mexanizminin öyrənilməsində respublika alimlərinin də böyük xidməti olmuşdur. Bunların sırasında Z.Ə.Səmədzadə, N.M.İmanov, Ə.C.Muradov, Ə.Q.Əlirzayev, T.H.Hüseynov, M.A.Əhmədov, H.B.Rüstəmbəyov, Ü.Q.Əliyev, Q.N.Manafov, T.N.Əliyev, Ş.S.Qafarov, G.Z.Yüzbaşiyeva, R.Ş.Muradov, İ.H.Alıyev, Ə.P.Babayev, F.Ə.Qənbərov, İ.A.Kərimli, T.M.Qurbanov və başqaları qeyd oluna bilər. Bu alimlərin əsərlərində milli iqtisadiyyatın inkişaf problemləri, iqtisadiyyatda bazar mexanizmi mövzusu əhəmiyyətli yer tutmuşdur.

İstər bazar iqtisadiyyatına keçid dövrü və istərsə də bazar iqtisadiyyatının inkişaf dövrü üçün bütövlükdə iqtisadi mexanizmin və onun struktur elementlərinin intensiv tədqiq olunmasına yaxın və uzaq xarici ölkələrin tanınmış iqtisadçı alimlərinin əsərləri həsr olunmuşdur. Bunlardan L.İ.Abalkini, K.L.Astafovu, L.V.Volkovu, A.V.Sadoviçi, R.İ.Xasbulatovu, A.P.Qradovu, V.N.Çerkovesi xüsusi olaraq qeyd etmək olar. Lakin iqtisadi mexanizmin öyrənilməsinə dair çoxsaylı tədqiqatların olmasına baxmayaraq bazar mexanizmini, onun milli iqtisadi xüsusiyyətlərinin öyrənilməsinə dair tədqiqatlar kifayət dərəcədə aparılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti olaraq ölkənin milli iqtisadiyyatında bazar mexanizminin ümumi cəhətlərinin milli iqtisadi inkişafla qarşılıqlı əlaqələnməsi sistemi seçilmişdir.

**Tədqiqatın predmetini** milli iqtisadiyyatda bazar mexanizminin hərəkətverici elementlərinin ümumi və spesifik cəhətləri arasında yaranan iqtisadi münasibətlərin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin öyrənilməsi yollarını və üsulları dəqiqləşdirməkdir. Qeyd edilən məqsədə çatmaq üçün dissertasiyada aşağıdakı vəzifələr irəli sürülür:

1. Milli iqtisadiyyatda bazar mexanizminin fəaliyyəti ilə əlaqədar başlıca nəzəriyyələrin sistemli öyrənilməsi əsasında bazar mexanizminin ümumi və spesifik funksional rolunun müəyyən

edilməsi;

2. Milli iqtisadiyyatda bazar mexanizminin başlıca elementlərinin qarşılıqlı təsirinin sistemli öyrənilməsi;

3. Tələblə təklifin uyğunluğunun bazar mexanizminin başlıca elementlərindən biri olması və bu uyğunluğun formalaşmasına yerli və xarici amillərin təsirinin öyrənilməsi;

4. Bazar mexanizminin çevik işləməsinə rəqabət – bazar mühitinin formalaşma səviyyəsinin, eyni zamanda həmin istiqamətdə milli iqtisadi xüsusiyyətlərin təsirinin araşdırılması;

5. Qiymət amilinin bazar mexanizminin mühüm elementi olduğunu və bu elementlə bağlı institusional amilləri qruplaşdırmaqla öyrənilməsi;

6. Milli iqtisadi inkişaf səviyyəsi baxımından bazar mexanizminin inkişaf istiqamətlərinə və ölkədə milli istehsalın makroiqtisadi səviyyədə formalaşmasına qiymət verilməsi;

7. Ölkədə istehsal resurslarının milliləşmə səviyyəsinə uyğun bazar mexanizminin ümumi prinsiplərini onun milli xüsusiyyətləri ilə əlaqələndirməyin gələcək yollarını müəyyənləşdirmək;

8. Bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin ölkədə daxili investisiya fəaliyyətinin genişləndirilməsinə təsirinin öyrənilməsi;

9. Milli iqtisadi inkişaf amillərinin fəallaşmasında bazar mexanizminin rolunun artması istiqamətlərini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Bazar mexanizmini, onun milli iqtisadi xüsusiyyətlərinin inkişaf meylinin öyrənilməsində milli-təkamül və inkişaf prinsiplərinə tətbiq edilən sistemli təhlilə, ümumiləşməyə üstünlük verilmişdir. Bazar mexanizminin ümumiqtisadi prinsipləri və onun milli iqtisadi xüsusiyyətlərinin izahında eyni zamanda sinergetik yanaşmalardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. İqtisadiyyatda bazar mexanizminin fəaliyyəti ilə əlaqədar nəzəriyyələr sistemli öyrənilərək müəyyən edilmişdir ki, bazar mexanizminin ümumi iqtisadi və spesifik milli-iqtisadi xüsusiyyətlərinin əsasları vardır. Ölkədə iqtisadi əlaqələrin inkişafının milli xüsusiyyətləri heç də həmin inkişafın təcridliyini göstərmir, özünəqapanmağa doğru aparmır, əksinə, milliləşmə ilə inteqrasiyalaşmanın

qarşılıqlı əlaqələnməsinin zəruri keyfiyyət tərəfi kimi özünü göstərir, iqtisadi inkişafın etnik-mental milli cəhətləri ilə beynəlmilli-ümumi cəhətlər birgə, vəhdətdə inkişaf edir.

2. Bazar mexanizminin tələblə təklifin uyğunluğu, rəqabət mühitinin formalaşması və qiymətin əmələ gəlməsi kimi başlıca elementlərinin spesifik tərəfləri milli iqtisadiyyat çərçivəsində baxılaraq hər üç elementin qarşılıqlı əlaqə və şərtlənmə halında milli iqtisadi inkişafa birgə təsiri güclənir.

3. Milli iqtisadiyyatın bütün sektorlarının məqsədləri ilə onlara çatmaq vasitələri arasında uyğunluğu yaratmaq üçün bir tərəfdən bazar subyektlərinin fərdi və korporativ maraqlarının oxşar sistemini, digər tərəfdən isə iqtisadi davranışın ənənəvi-mütərəqqi formalarını özü üçün seçən rəqabət-bazar mühitini tələb etməklə milli xüsusiyyətli bazar mexanizmi ölkənin istehsal-təsərrüfat əlaqələrini sosial məzmunlu milli iqtisadiyyat istiqamətində keyfiyyət amilinə çevirə bilir.

4. Milli iqtisadi inkişafın sürətlənməsi istiqamətində bazar mexanizminin formalaşmasının spesifik və ümumi cəhətlərinin birgə inkişaf meylləri ölkənin iqtisadi və sosial inkişafının daha güclu hərəkətverici qüvvəsinin ilkin şərtlərini yaradır.

5. Bazar mexanizmində milli iqtisai inkişaf amilləri fəallaşdıqca ölkənin milli iqtisadi inkişafinin dayanıqlığı artır. Bununla da ölkənin milli iqtisadiyyatında bazar mexanizminin çevikliyi və dinamikliyi də yüksəlir.

6. Ölkənin milli iqtisadiyyatının bütün sektorlarının müvazinətli inkişafı üçün tələb olunan həcmdə və strukturda xarici və daxili investisiya resursları ilə milli təsərrüfat subyektləri təmin olunarsa, daxili investisiya resurslarının tərkibində dövlət və özəl investisiyaların birgə yatırılması nə qədər genişlənərsə milli iqtisadi və sosial artımın səmərəliliyinə daha çox nail olmaq olar.

7. Ölkədə sosial-iqtisadi inkişafın milli və beynəlmilli amillərini qarşılıqlı əlaqələndirməklə bazar mexanizminin də milli cəhətləri və xüsusiyyətləri ilə yanaşı ümumi cəhətlərini birğə formalaşdırıb milli iqtisadi inkişaf modelinin real əsaslarını yaratmaq olar.

**Tədqiqatın elmi yeniliyi:**

1. Ölkə iqtisadiyyatında bazar mexanizminin ümumi cəhətləri ilə

yanaşı, onun milli dəyərlərə və sosial-iqtisadi şəraitindən irəli gələn xüsusiyyətlərə malik olmasının obyektiv zərurət olduğu elmi cəhətdən əsaslandırılmışdır.

2. Milli xüsusiyyətli bazar mexanizmi iqtisadi əlaqələrin xarici təzahür forması kimi deyil, milli iqtisadiyyatın tarixən özünün formalaşdırdığı daxili amillər qismində özünü göstərməsi əsaslandırılmışdır.

3. Milli firmalar, şirkətlər və hətta dövlət də daxil olmaqla iqtisadi subyektlərin fəaliyyətinin səmərəli qarşılıqlı əlaqələnməsini ifadə edən milli xüsusiyyətli bazar mexanizminin tədqiq edilməsinə yeni yanaşma milli iqtisadi inkişaf meyarının düzgün seçilməsini və bununla da milli iqtisadiyyatda bazar mexanizminin fəal işləməsi şəraitinin yaradılması müəyyən edilmişdir.

4. Milli xüsusiyyətli bazar mexanizminin fəaliyyətinin əsasında dayanan iri miqyaslı real sektorun bütövlüyünü təmin edən iqtisadi milliləşmə üsulunun məzmunu aydınlaşdırılmışdır.

5. Milli iqtisadiyyatın bütövlüyünün və tamlığının təminatı probleminin həlli ilə əlaqədar bazar mexanizmində tələblə təklifin uyğunluğundan, rəqabət qabiliyyətliliyin artmasından, qiymətdən səmərəli istifadə kimi başlıca elementlərin birgə, sistemli işləməsinə nail olmaqda milli iqtisadi amillərin təsirinin konkret yolları göstərilmişdir.

6. Milli xüsusiyyətli bazar mexanizminin strukturunda xarici investisiyalarla müqayisədə milli investisiya fəaliyyətinə geniş meydan verilməsi, milli iqtisadi inkişafın sürətləndirilməsində milli investorların ümummilli qazanc əldə olunması yolları dəqiqləşdirilmişdir.

7. Milli iqtisadi inkişaf amillərinin (xüsusən, institusional və sosial-iqtisadi amillərin) qarşılıqlı təsirinin tədqiq olunmasına əsaslanaraq bazar mexanizminin milli xüsusiyyətlərinin daha da genişləndirilməsinin potensial imkanları aşkara çıxarılmışdır. Qeyd edilən potensialın milli iqtisadi inkişafın funksional istiqamətindən və istehsalçıların fərdi maraqlarının və motivlərinin ümumiliyindən irəli gəlməsi imkanlarından asılı olması əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Milli iqtisadiyyata milli təsərrüfatların təkamülü müstəvisində baxılaraq milli iqtisadi

inkişafa iqtisadiyyatın ayrı-ayrı sahələrindəki artımla deyil, yalnız bütün milli təsərrüfat sahələrində uyğunlaşdırılmış birgə artımla nail olmağa dair konsepsiya irəli sürülmüşdür.

Dissertasiya işində irəli sürülən nəticə və təkliflərin təcrübi istiqaməti təsərrüfatçılığın makroiqtisadi və regional səviyyələrində elmi-tədqiqat və idarəetmə strukturları tərəfindən inkişaf proqramları və layihələrinin hazırlanmasında tətbiq edilə bilər. Dissertasiyanın materiallarından son illərdə tədris-metodiki materialların (fənn proqramları, dərslik, dərs vəsaitləri) hazırlanmasında, eyni zamanda Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti və ölkənin başqa ali məktəblərində “Makroiqtisadiyyat”, “Mikroiqtisadiyyat”, “Beynəlxalq iqtisadiyyat”, “Azərbaycan iqtisadiyyatı” fənləri üzrə mühazirə kurslarının oxunmasında tədris materialı kimi istifadə edilir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin nəticələri və əsas müddəaları beynəlxalq, respublika səviyyəli konfranslarda, ali məktəblərarası elmi-nəzəri və elmi-praktik konfranslardakı elmi məruzələrdə və çıxışlarda təqdim edilmişdir. Onlardan “National economic indicators and national accounts system” adlı tezisi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, İqtisadiyyat, Təhsil Nazirliklərinin və Azərbaycan Dövlət İqtisad Universitetinin 13-14 fevral 2020-ci ildə birgə keçirdiyi “Rəqəmsal İqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda beynəlxaq konfransın materiallarında nəşr olunmuş və müəllif konfransdakı çıxışına görə sertifikat almışdır. Bundan başqa, 2012-ci ildə Tbilisi Dövlət Universitetində professor Ç.Tseretelinin anadan olmasının 60 illiyinə həsr olunmuş “Qloballaşma və milli iqtisadiyyat” mövzusunda keçirilən konfransın materiallarında, “İqtisadiyyat və sahibkarlıq” beynəlxalq elmi jurnalının 2014-cü ildə keçirilən oxucu konfransının materiallarında tezisləri nəşr olunmuş, həmçinin AR Təhsil Nazirliyinin və AMEA-nın təşkil etdiyi doktorant və dissertantların 2015-ci ildə keçirilən ümumrespublika konfransında nümunəvi çıxış etmiş və yazdığı məqaləyə görə sertifikat almışdır. Dissertasiyanın mövzusu, onun strukturu və əsas müddəaları Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunun “İqtisadi

siyasət və iqtisadi fikir tarixi” şöbəsində ali məktəblərin mütəxəssisləri cəlb olunmaqla müzakirə edilmişdir.

Dissertasiya işinin əsas elmi nəticələri 12-dən cox elmi məqalə, respublika və xarici nəşrlərdə konfrans materialları və tezis halında çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun “İqtisadi siyasət və iqtisadi fikir tarixi” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 9 səhifə, I fəsil 29 səhifə, II fəsil 58 səhifə, III fəsil 42 səhifə, Nəticə hissəsi 4 səhifə, şəkillər, cədvəllər, qrafiklər və ədəbiyyat siyahısı istisna olmaqla, işarə ilə ümumi həcmi 270 559 simvoldur.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın ***Giriş*** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, araşdırmanın aprobasiyası və quruluşu haqqında elmi məlumat diqqətə çatdırılır.

**1-ci müddəa: Ölkə iqtisadiyyatında bazar mexanizminin fəaliyyəti ilə əlaqədar nəzəriyyələr sistemli öyrənilərək müəyyən edilmişdir ki, bazar mexanizminin ümumi iqtisadi və spesifik milli-iqtisadi xüsusiyyətlərinin əsasları vardır.** Milli iqtisadiyyatın daxili hərəkətverici motivlərinə dair klassik və müasir iqtisadi ədəbiyyat araşdırılmış, milli iqtisadi inkişaf modelləri və nəzəriyyələri əsasında konseptual ümumiləşdirmələr irəli sürülmüşdür. Konkret iqtisadi həyatın real ifadəsi uzun təkamül prosesində ölkələrin və xalqların inkişaf meyllərində öz ifadəsini tapa bilir ki, bunlarsız iqtisadi inkişaf mexanizmləri həqiqi reallıqları əks etdirə bilməz. İqtisadi mexanizmin, o cümlədən, bazar

mexanizminin milli xüsusiyyəti ideoloji, sinfi və yaxud da qlobal proseslərlə əhatə olunsalar da, hər halda onlar iqtisadi hadisə və proseslərin mahiyyətini dəyişə bilməz.

Milli iqtisadiyyatın milli mənafelərin reallaşmasına daha əlverişli şərait yaratmaq imkanına malik olması F.Listin iqtisadi tədqiqatlarının mərkəzində dayanır. Bir sıra qərb ölkələri öz milli iqtisadi inkişaf konsepsiyalarının işlənib hazırlanmasında F.Listin nəzəriyyəsindən az və ya çox dərəcədə bacarıqla istifadə etmişlər.

Bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin nəzəri əsaslarını öyrənərkən həmin mexanizmin mövcudluğunun həm ilkin cəhətlərini və həm də onun gələcək inkişaf istiqamətinin əsaslandırılması məsələsi öz həllini tapmalıdır.

Bazar mexanizminin milli iqtisadi xüsusiyyətlərinin iqtisadi mahiyyətinin tədqiqi bu prosesin həm zahiri və həm də daxili, konkret əlaqəsini müəyyənləşdirməyi nəzərdə tutur. Bu halda istehsal-bazar fəaliyyətinin konkret daxili əlaqələri, habelə bazar münasibətlərinin zahiri təbəqəsindəki formalar üzə çıxır. Bu fikrin bazar mexanizminin bütün problemlərinin öyrənilməsi üçün mühüm metodoloji əhəmiyyəti vardır. İqtisadi inkişafın etnik-mental milli cəhətləri ilə beynəlmilli cəhətlər birgə, vəhdətdə inkişaf edir. Milli iqtisadiyyatda istehsalla bazar arasında qarşılıqlı əlaqələrin formalaşması əsasında yaranan istər makro, istərsə də mikro səviyyədə üzə çıxan müxtəlif iqtisadi proseslər sistemli şəkildə öyrənilir.

Bazar mexanizmi makro və mikro səviyyəli müxtəlif təsərrüfat formalarına tətbiq edilərkən müxtəlif xüsusiyyətlərə malik ola bilir. Dünya ölkələri üzrə formalaşmış müasir iqtisadi sistemlər və onların strukturu özünün formasından asılı olmayaraq çox müxtəlifdir. Çünki bir-biri ilə daha da möhkəmlənən münasibətlərlə bağlı çoxsaylı sektorları və müxtəlif sahələri özündə cəmləşdirir. Buradan onların fəaliyyətinin əlaqələndirilməsi və tənzimlənməsi zərurəti obyektiv surətdə yaranır.

Təcrübi fəaliyyətin iqtisadi qanunlara uyğunlaşdırılması məhz bazar mexanizminin mahiyyətinin, onun təzahür formalarının və vasitələrinin dərk edilməsi ilə həyata keçirilir. Buradan da bazar mexanizminin işləməsində iqtisadi qanunlardan istifadənin mürəkkəb

və çoxplanlı rolu üzə çıxır.

Ölkənin iqtisadi inkişafının sosial-iqtisadi nəticəsi, daha çox ölkədə aparılan milliləşmənin səviyyəsində öz ifadəsini tapır. İqtisadi milliləşmənin səviyyəsi artdıqca milli kapitalların və bütünlükdə milli istehsalın daxili hərəkətverici qüvvəsi artır, onların yaradıcı xarakteri canlanır, milli iqtisadi motivlər və stimullar daha güclü səfərbər olunur. İqtisadi milliləşmənin səviyyəsi nə qədər yüksəlib iqtisadi təcridləşməni genişləndirirsə, bir o qədər də iqtisadi inteqrasiyalaşmaya doğru meyl artır. Bu iqtisadi təcridləşmədən iqtisadi inteqrasiyaya doğru hərəkəti – daxili milliləşmədən (lokal milliləşmədən) regional milliləşməyə və nəhayət, beynəlmiləlləşməyə doğru hərəkəti özündə birləşdirir.

Millətin yaradıcılıq potensialını vahid məcrada cəmləmək və istiqamətləndirmək üçün maksimum imkanlara malik olmalı, ən vacibi isə onun hüdudlarında ölkə miqyaslı milliləşmə öz ifadəsini tapmalıdır. bununla subyektiv qarşılıqlı fəaliyyətin sosial-məsuliyyət dəyərləri təkrar yarada bilsin. Burada institusional tənzimlənmənin spesifik mexanizmi ilə iqtisadi maraqların birgə qovuşması tədricən cəmləşir. Ölkənin ilkin iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq həmin spesifiklik qorunub saxlanılarsa, onda ölkə daha mütərəqqi formalarda innovasiyalara və irəliyə sürətli hərəkətə doğru böyük potensiallar əldə etmiş olur.

**2-ci müddəa: Bazar mexanizminin tələblə təklifin uyğunluğu, rəqabət mühitinin formalaşması və qiymətin əmələ gəlməsi kimi başlıca elementlərinin spesifik tərəfləri milli iqtisadiyyat çərçivəsində baxılaraq hər üç elementin qarşılıqlı əlaqə və şərtlənmə halında milli iqtisadi inkişafa birgə təsiri güclənir.** Bazar mexanizminin fəaliyyəti müəyyən tarixi dövrlərdə bu və ya digər millətin sosial-iqtisadi mənafeyinə uyğunlaşmış və bütün dövrlərdə bazar mexanizminin milli cəhətləri çərçivəsində tədqiq olunması istiqamətinə cəhd edilmişdir. Məqsəd iqtisadi səmərə əldə etmək üçün ilk növbədə, öyrənilən iqtisadi proseslərin daxili hərəkətverici qüvvələrini tapıb ön sıraya çıxarmaq onu yaradan iqtisadi gücün isə müstəqil dövlətin iqtisadiyyatının inkişafında daha fəal motivləşmə başlanğıcı kimi çıxış etməsini aydınlaşdırmaqdır.

Milli iqtisadiyyatda bazar mexanizminin işləməsinin real

vəziyyətini tələb və təklifin həmin mexanizmə necə xidmət etməsindən görmək olar. Bazar mexanizminin kifayət qədər çevik olan həmin elementi bütünlükdə ölkənin milli iqtisadiyyatının fəaliyyətindəki dinamik dəyişikliklərin mərkəzində dayanır.

Bu mənada bazarda mallara və xidmətlərə olan tələbat tələbin daxili, daim təkrarlanan proses olub, onun əsasında dayanır. Əhalinin tələbatının ödənilməsi dərəcəsi onların istehlak imkanları ilə müəyyənləşir və bu da alıcılıq qabiliyyətli tələblə, yəni bazara çıxarılan pul məbləği ilə məhdudlaşır.

Əhalinin pul gəlirləri və xərclərinin həcminə və strukturuna diqqət verdikdə görmək olar ki, müəyyən illər üzrə yaşayışa lazım olan ən zəruri malları və xidmətləri əldə etməyə imkan verən amillər aşkara çıxır. İllər üzrə qalxıb-enmələr olsa da, bütün hallarda konkret və qısa dövrlərdə əhalinin gəlirlərinin 70-90%-ə qədəri malların və xidmətlərin əldə edilməsinə xərclənir. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar (Cədvəl 2.1.).

**Cədvəl 2.1.**

**2005-2019-cu illərdə Azərbaycanda əhalinin gəlirləri və xərclərinin göstəriciləri[1].**

| | Göstəricilər | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Əhalinin gəlirləri (mlyn man.) | 8063,6 | 25607,0 | 41744,8 | 49187,9 | 53103,7 | 54210,0 | 57035,0 |
| 2. | Əhalinin hər nəfərinə düşən gəlir (manatla) | 962,2 | 2866,1 | 4381,1 | 490,8 | 531,0 | 539,7 | 575,4 |
| 3. | Təyin olunmuş aylıq pensiyaların orta məbləği (manatla) | 28,5 | 112,9 | 173,4 | 177,7 | 201,5 | 221,4 | 263,6 |
| 4. | İşçilərin orta aylıq əmək haqqı (manatla) | 123,6 | 331,5 | 466,9 | 499,8 | 528,5 | 544,6 | 635,1 |
| 5. | Əhalinin xərcləri (mlyn man.) | 6508,7 | 19251,5 | 34963,4 | 35119,9 | 44498,4 | 47557,2 | 51268,4 |

Cədvəl 2.1-də göstərilən məlumatların təhlili göstərir ki, əmək

[1] Azərbaycanın statistik göstəriciləri 2019. Azərbaycan Dövlət Statistika Komitəsi. // – Bakı, – 2020.

haqqının əhalinin ümumi gəlirlərində xüsusi çəkisi 2005-ci illə müqayisədə 2015-ci ildə 13,0%-dən 10,5%-ə enmiş, 2019-cu ildə isə 11,0%-ə qalxmışdır. Bunun əksinə olaraq mallar satışından və müxtəlif xidmətlər göstərilməsindən daxil olan gəlirlər isə bir neçə dəfə artmışdır. Bu halı qrafik 1-dən daha aydın görmək olar. (Bax: Qrafik 2.1.).




**Qrafik 2.1. 2005-2019-cu illərdə Azərbaycanda əhalinin əmək haqqı və ümumi gəlirləri**

Milli iqtisadiyyatda bazar mexanizminin belə vəziyyəti əhalinin alıcılıq qabiliyyəti ilə mallar və xidmətlər təklifinin tarazlaşmasına və bununla da iqtisadi artımın əsasında dayanan istehsal artımına müntəzəm təkan veriləcəkdir.

Əgər milli iqtisadiyyatda rəqabət-bazar mühiti daha sürətlə genişlənərək bazar mexanizminin fəal işləməsinə birbaşa təsir edirsə, deməli, həmin prosesin başlıca təsir qüvvəsi olan tələblə təklifin tarazlığı və bu tarazlığın asılılıq mənbəyi olan bazar qiyməti diqqət mərkəzində saxlanılır.

Bazar mexanizmi sistemində tələbin, təsir imkanları və dinamikliyi ümumi prinsiplərlə formalaşsa da, bütün hallarda onun özünə məxsus yerli və ya milli xüsusiyyətləri nəzərə alınmalıdır. Yəni bazarda mallara və xidmətlərə olan tələbin qısa zaman ərzində azalması və yaxud artması bazar qiymətinin də aşağı və yaxud yuxarı qalxmasına təsir edə bilir.

Əgər mal tarazlaşdırılmış qiymətdən aşağı qiymətlə satılarsa, artıq tələb, yaxud mal çatışmazlığı yaranır. Belə hallarda

istehlakçılara daha yüksək qiymət təklif etmək daha sərfəlidir. Digər tərəfdən, qiymətlərin artımı firmaları müəyyən malın satışı üçün ehtiyatları yenidən bölüşdürməyə stimul yaradacaqdır.




**Qrafik 2.3. Tələblə təklif arasında makroiqtisadi tarazlıq.**

İqtisadiyyatda tarazlıq pozulan halda, məsələn, məcmu tələbin tez bir zamanda dəyişməsi nəticəsində buna qarşı əks reaksiya yaranır və yaranmış qısamüddətli tarazlıq halından sabit uzunmüddətli tarazlığa keçid yaranır (bax: Qrafik 2.3). Məsələn, pul kütləsinin artımı nəticəsində məcmu tələb artır ($AD_1$ --- $AD_2$), burada qısamüddətli tarazlıq B nöqtəsində yaranır, belə ki, $Y>Y^2$ olur və qiymətlərin səviyyəsi isə dəyişməz qalır. Yüksək tələbin təsiri nəticəsində istehsalın həcmi artır, lakin məhsulların satışı köhnə qiymətlərlə həyata keçirilir. Müəyyən müddətdən sonra tədricən xərclərin artımı müşahidə olunur; ehtiyatların məhdudluğu və ona olan tələbin artımı nəticəsində ehtiyatların mövcud qiymətləri artır. Bunların da hamısı son məhsulun qiymət artımına təsir göstərir. Nəticədə məcmu tələbin həcmi azalır ($AD_2$ əyrisi üzərində B nöqtəsindən C nöqtəsinə doğru) və daha yüksək qiymətlər şərti ilə istehsalın əvvəlki həcmi yenidən yaranır. Uzunmüddətli tarazlıq C nöqtəsində yaranır.

Əgər hökumət və Mərkəzi Bank heç bir addım atmasa, iqtisadiyyat yeni şəraitə uyğunlaşmağa başlayacaq. Belə bir uyğunlaşma uzun müddət çəkə bilər, iqtisadiyyat isə uzun müddətli enişlə sosial konfliktlərlə nəticələnər. Mərkəzi Bank enişin qarşısını

ala bilər, belə ki, pul kütləsinə olan təklifi artırmaqla (AD əyrisinin sağa doğru meyli $AD_1$ və $AD_2$ əyriləri) həyata keçirə bilər. Amma bu addımın nəticəsində qiymətlərin yüksək səviyyədə artımı (C nöqtəsi) müşahidə olunacaq. Analoji nəticəyə dövlət xərclərinin artımı ilə də gəlmək olar.

**3-cü müddəa: Milli iqtisadiyyatın bütün sektorlarının məqsədləri ilə onlara çatmaq vasitələri arasında uyğunluğu yaratmaq üçün bir tərəfdən bazar subyektlərinin fərdi və korporativ maraqlarının oxşar sistemini, digər tərəfdən isə iqtisadi davranışın ənənəvi-mütərəqqi formalarını özü üçün seçən rəqabət-bazar mühitini tələb etməklə milli xüsusiyyətli bazar mexanizmi ölkənin istehsal-təsərrüfat əlaqələrini sosial məzmunlu milli iqtisadiyyat istiqamətində formalaşdıran keyfiyyət amilinə çevirə bilir.**

Milli iqtisadiyyatın hər hansı bir istehsal və satış həlqəsinin və bu iqtisadiyyatda formalaşan bazar mexanizminin hər hansı bir elementinin daxili və xarici bazarlarda mallara və xidmətlərə yeni tələb yarada bilirsə, deməli, həmin iqtisadiyyatın bazar mexanizmi fəal işləyir və beləliklə, ölkənin rəqabət üstünlüyü reallaşır. Belə üstünlük nə qədər çox qorunub saxlanılarsa, ölkənin milli iqtisadi inkişafı bir o qədər çox sürətlənər. Bu, onu göstərir ki, rəqabət qabiliyyətlilik yalnız iqtisadi çərçivədə olan bir element kimi deyil, eyni zamanda sosial tələblərə də cavab verməli, ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsində öz ifadəsini tapmalıdır.

Azərbaycanın milli iqtisadiyyatında bazar mexanizminin fəal işləməsini uzun müddət üçün qoruyub saxlamaq tələb edir ki, ölkədə innovativ istehsal amilləri ön sırada dayansın. Yəni həm texniki-texnoloji yeniliklərin tətbiqi və həm də bazar mexanizminin işləməsi üçün fərdi və korporativ maraqların uyğunlaşdırılmış sisteminin hazırlanması və tətbiqi nəzərdə tutulur. İlk növbədə elmi texniki təchizata, istehsalın ixtisaslaşmasına yönəldilən investisiyaların artırılması üçün iqtisadi və sosial şəraitin yaradılması lazım gəlir.

Təhlili bir qədər də dərinləşdirmək üçün milli iqtisadi inkişafın və onun rəqabət qabiliyyətinin artırılmasını investisiya və innovasiya amillərindən asılılığını araşdırmaq lazım gəlir. Bu istiqamətdə milli və xarici iqtisadçı alimlərin fikirlərini ümumiləşdirərək aşağıdakı

ardıcıllıq çərçivəsində qurulmuş sxematik təsvirə fikir verək (bax: Sxem 2.1.).




**Sxem 2.1. Milli iqtisadi inkişaf ilə təbii və iqtisadi resurslar arasındakı əlaqəyə təsir edən amillər sistemi.**

Sxem 2.1-dən göründüyü kimi, milli iqtisadi inkişafın iqtisadi resurslardan asılılığı çox olarsa bazar mexanizminin fəal işləməsi daha da güclənir. İnvestisiya qoyuluşlarının keyfiyyət tərəfi ilə innovasiya proseslərinin reallaşması sıx əlaqədədir. İstər milli və istərsə də xarici investisiya qoyuluşlarından yaradıcılıqla bəhrələnən milli şirkətlər öz texnika və texnologiyalarını yaratmaqla tədricən innovasiya proseslərinə qoşulur, innovasiya məhsulları istehsalına və onların tətbiqinə nail olurlar.

Özünün milli iqtisadiyyatının liberallaşmasını və açıqlıq səviyyəsini artırmaq istəyən hər bir ölkə dünya təcrübəsindən uğurla çıxan həmin prosesləri ciddi nəzərə alması və hökumətin fəaliyyətinin başlıca istiqamətinə çevrirməlidir. Lakin təəssüflə deyək ki, Cənubi-Şərqi Avropa və Baltikyanı ölkələrlə müqayisədə

Qafqaz və Orta Asiya ölkələrində iqtisadi liberallaşma zəif aparılır, iqtisadi proseslərə inzibati yolla müdaxilə, inhisarçılıq halları hələ də güclü olaraq özünü göstərir.

**4-cü müddəa: Milli iqtisadi inkişafın sürətlənməsi istiqamətində bazar mexanizminin formalaşmasının spesifik və ümumi cəhətlərinin birgə inkişaf meylləri ölkənin iqtisadi və sosial həyatının hərəkətverici qüvvəsinə çevrilməsinin ilkin şərtlərini yaradır.** Eyni zamanda həmin hərəkətverici qüvvə bazar mexanizminin struktur elementlərinin qarşılıqlı əlaqələnmə şərtlənmə halında birgə fəaliyyəti əsasında formalaşır və milli iqtisadiyyatın sektorları və sahələri arasında tarazlı, davamlı inkişafı şərtləndirir. Bu problem və onun həllinin ilkin şərtləri barədə 2021-ci ilin fevral ayında qəbul edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər"-də ümumi istiqamət verilmişdir. Malların və xidmətlərin ixrac potensialının aşkara çıxarılması və reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr"-in tapılması problemi birinci prioritetdə öz əksini tapmış və həll edilməsi vacibliyi qarşıya qoyulmuşdur. Fikrimizcə dissertasiya tədqiqatında bu problem öz həllini əsasən tapmışdır. Beləki, milli iqtisadiyyatda hərəkətverici qüvvələrin tapılması dedikdə bütün hallarda bazar mexanizmini hərəkətə gətirən, onun ilkin hərəkətyaradıcı elementlərini işə salmağı nəzərdə tutmaq lazımdır. Fikrimizcə həmin elementlər təcrid olunmuş halda deyil, dissertasiyada araşdırılıb nəticə çıxarıldığı kimi qarşılıqlı əlaqəni, birgə fəaliyyəti təmin edib, birgə təsir gücünü, qüvvəsini yaratmaqdır. Yalnız bu halda bazar mexanizmi, onun struktur elementləri davamlı işləyə bilər.

Milli iqtisadi inkişafın yuxarıda qeyd edilən bazar mexanizminin strukturundan, onun elementlərinin birgə təsirindən göründüyü kimi, bazar tarazlığını riyazi olaraq Leontyev modeli ilə əlaqələndirmək olar. Bu tarazlıq modelinin ilkin şərtləri ondan ibarətdir ki, ölkədə $n$ sayda məhsul istehsal edilir, satılır, alınır, istehlak edilir və investisiyalaşdırılır; hər bir maddi istehsal sahəsi yalnız bir növ məhsul istehsal edir. Məhsul vahidi istehsalında məsrəflərlə istehsalın həcmi arasında əlaqə formalaşır. Belə halda ölkə üzrə istehsalla istehlakın tarazlığı aşağıdakı tənliklər sistemi şəklində ifadə olunacaqdır:

$$X_i = \sum_{i=1}^{n} a_{ij} z_j + Y_i \quad (i = \dot{I},n) \qquad (1)$$

Burada:

$X_i$ – i saylı maddi istehsal sahəsinin məcmu məhsulu;

$Y_i$ – i saylı maddi istehsal sahəsinin sonməhsulu;

$a_{ij}$ – isə nisbi sabit parametr olub, müəyyən bir məhsul vahidi istehsalına sərf edilən bu və ya digər məhsulun miqdarını ifadə edir.

Bazar tarazlığının tədqiqində ümumi rəqabət tarazlığının əldə edilməsinə imkan yaradan Valras modeli xüsusi əhəmiyyət kəsb edir. Bu modeldə ölkədə yuxarıda verilmiş sistemə əsasən çoxsaylı məhsulların istehsalı, bölgüsü və istehlakını həyata keçirən bir mexanizm kimi öyrənilir. İstehsalçıların və istehlakçıların sayı çox olsa da, onlardan heç biri qiymətlərə təsir göstərə bilmir. Bu qiymətlər bərqərar olduqda ölkədə istehlakçılarla istehsalçılar arasında uyğunsuzluğu aradan qaldırmaq mümkün olur.

Hər bir istehlakçının texnoloji imkanlarını $Y_k = (Y_{k1}, Y_{k2}, \dots, Y_{km})^1$ məsrəf-buraxılış vektor sütunu xarakterizə edir. Deməli, $PY_k$ skalyar hasil istehsalçının mənfəəti olacaqdır. Təbii ki, bütün mümkün $Y_k$ məsrəf buraxılış vektorları çoxluğu $Y_k$ istehsal imkanları çoxluğu olacaqdır. Onda bütün makroiqtisadiyyat üçün məsrəf-buraxılış vektoru $Y_k$ fərdi vektorların cəmi hesablanacaqdır.

$$Y = \sum_{i=1}^{n} y_k \qquad (2)$$

Bütün istehlakçıların

$$b = \sum_{i=1}^{i} b_i \qquad (3)$$

Cəmi məcmu ilkin mülkiyyəti göstərici, *[b]+y* çoxluğu isə məcmu təklif çoxluğu hesab edilir.

İstehlakın bölgüsü hər bir istehlakçının istehlak çeşidinin seçiminə doğru aparır. Onda qeyd edilən cəm formulu məcmu tələb vektoru adlanır. Qeyd edək ki, bu vektorun bəzi komponentləri mənfi də ola bilər.

$$X = \sum_{i=1}^{n} x_i \qquad (4)$$

Əgər ($x_1$, $x_2$, ..., $x_1$; $y_1$, $y_2$, ... n,$y_m$)istehlak vəməsrəf buraxılış sektorları çoxluğu üçün

$$X = \sum_{i=1}^{n} x_i = b + \sum_{i=1}^{n} y_k = b + y \qquad (5)$$

Məcmu tələbin məcmu təkliflə tarazlığı şərti ödənilməsə, onda belə hesab edilir ki, istehsal və istehlakın ortaq bölgüsü mövcuddur.

Beləliklə, məcmu tələb məcmu təklifi üstələmirsə (5) şərti ödənirsə), onda rəqabət tarazlığı istehsal və istehlakın müştərək bölgüsünü nəzərdə tutur. Bu halda rəqabət qiymətlərində məcmu tələbin qiyməti həmin qiymətlərdə məcmu təklifin qiymətinə bərabər olur, hər bir istehlakçı $P^k$ qiymətlərində öz faydalılığını maksimumlaşdırır, hər bir istehsalçı isə həmin qiymətlərdə özmənfəətini maksimumlaşdırır. Deməli, rəqabət tarazlığının mövcudluğu elə $P^k$ tarazlıq qiymətləri çoxluğunun mövcud olmasını tutur ki, bu qiymətlər daxilində makroiqtisadi sistemdə istehlakçılarla istehsalçıların münaqişəli mənafelərini uzlaşdırmaq mümkün olur.

Belə bir real proseslərlə tədricən əhatələnən bazar mexanizmi üçün struktur elementlərinin tərəddüdlüyü labüd olur və bununla mexanizmin dinamik işləməsinin vacib şərti olur.

**5-ci müddəa: Bazar mexanizmində milli iqtisadi inkişaf amilləri fəallaşdıqca ölkənin milli iqtisadi inkişafının dayanıqlığı da artır. Bununla da ölkənin milli iqtisadiyyatında bazar mexanizminin çevikliyi və dinamikliyi də yüksəlir.** Milli iqtisadiyyatın mövcud vəziyyətindən və gələcək inkişafından irəli gələn xüsusiyyətləri hərtərəfli nəzərə almaqla onların təsir dairəsini də öyrənib. Bazar mexanizminin fəaliyyətini tənzimləməklə onun milli iqtisadi inkişaf amillərini fəallaşdırmaq olar. Yalnız bu yolla Azərbaycanın milli iqtisadiyyatında bazar mexanizminin çevikliyini və dinamikliyini formalaşdırmaq mümkündür.

Azərbaycan iqtisadiyyatında milli iqtisadi artımın göstərilən amillərinin fəallaşmasının əsas səbəbi 2000-ci ildən başlayaraq iqtisadi proseslərdə milli iqtisadi inkişafın Azərbaycan modelinin tədricən fəallaşmasıdır. Bu model bazar mexanizminin işləməsinin milli xüsusiyyətlərini, milli maraqları ifadə etməsini bütünlükdə bazar mexanizminin inkişafının dünya təcrübəsini əsas götürür, siyasi vəziyyət, sosial-iqtisadi şərait, adət-ənənələr əsasında demokratik-hüquqi dövlət quruculuğunu ön plana çəkir.




**Şəkil 3.1. Milli iqtisadi inkişafın bazar mexanizminə əsaslanan strateji istiqamətləri.**

Azərbaycanda milli iqtisadi artım göstəricilərinin təhlili və ümumiləşdirilməsi belə bir qənaətə gəlməyə imkan verir ki, son illər ölkədə aparılan iqtisadi islahatlar məqsədyönlüdür. Lakin buna baxmayaraq hələ də dayanıqlı milli iqtisadi inkişafın qarşısını ala biləcək maneələr və onları şərtləndirən amillər mövcuddur. Belə ki, milli iqtisadi artımın fiziki həcmi üzrə göstəricilərin artımı özlüyündə prosesin kəmiyyət tərəfidir. Əsas məsələ milli iqtisadi artımda keyfiyyət dəyişikliklərinin əldə olunmasıdır. Azərbaycan iqtisadiyyatında milli hesablar sisteminin əsas göstəricilərinin daha düzgün hesablanması, milli iqtisadi göstəricilər arasında uyğunsuzluğun aşkar edilməsi çox vacibdir. Statistik rəqəmlər göstərir ki, ölkədə milli iqtisadi artım əsasən xarici amillərlə daha çox bağlıdır və bu mənada milli iqtisadi inkişaf strategiyasının əsas məqsədi xarici iqtisadi əlaqələr sahəsində mövcud problemlərin həlli ön sıraya çıxarılır.

Milli iqtisadi inkişaf amillərinin fəallaşmasında əmək məhsuldarlığının rolunu və əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazım gəlir. Əsas məsələ istehsal olunan məhsulun artımını necə ölçməyi dəqiqləşdirməkdir. Əvvəlki illərlə müqayisənin daha dəqiq olması üçün Azərbaycanda ÜDM-in 2000-ci ildəki qiymətlərlə məbləğini işləyən əhalinin sayına bölməklə iqtisadiyyatda əmək məhsuldarlığını tapmaq lazım gəlir. Ümumilikdə 2000-2020-ci illərdə bəzi tərəddüdləri nəzərə almasaq ölkə üzrə əmək məhsuldarlığı 10 dəfədən çox artıb (cədvəl 3.2.). Lakin Azərbaycanın milli iqtisadiyyatında əmək məhsuldarlığının artımının, bunun milli iqtisadi inkişaf amillərinin fəallaşmasına təsirində bir çox problemlər vardır. Cədvəl məlumatları göstərir ki, Azərbaycanda 1 nəfər məşğul əhaliyə düşən əmək məhsuldarlığı cari qiymətlərlə 6,15 min dollardır ki, bu da dünya ölkələrindəki orta göstəricidən çox geridir. Müqayisə üçün deyək ki, bu göstərici Yaponiyada 56,7 min dollar, Fransa və İtaliyada 56,6 min dollar, ABŞ-da 73,2 min dollar, Çində 74,0 min dollardır.

**Cədvəl 3.2.**

**Azərbaycanda əmək məhsuldarlığının səviyyəsi[2].**

| | 2000 | 2005 | 2010 | 2015 | 2019 |
|---|---|---|---|---|---|
| ÜDM cari qiymətlərlə (mln. manat) | 4718,1 | 12522 | 42465 | 54352 | 81681,0 |
| İqtisadiyyatda məşğul əhali (min nəfər) | 3704,5 | 4062 | 4329,1 | 4671,6 | 4938,5 |
| Əmək haqqı fondu, əlavələr daxil edilməklə (mln. manat) | 3605 | 7216 | 28076 | 37071 | 46575,5 |
| Əmək məhsuldarlığı, bir işçiyə düşən ümumi məhsul (manat) | 420 | 733 | 2362 | 4315 | 5078,0 |
| Əmək məhsuldarlığının dəyişməsi (%-lə) | 111,1 | 124,5 | 110,1 | 110,6 | 115,4 |

Azərbaycanın sənayesi tələb olunan səviyyədə innovasiyalı potensiala malik olduğundan innovasiyalı inkişafın təmin edilməsində texnoloji və proses innovasiyaları ilə yanaşı məhsul innovasiyalarının yaradılmasına istiqamət götürülməlidir. Bu istiqamətin obyekti həm hasilat və həm də emal sənaye sahələri üzrə milli iqtisadi inkişaf olmalıdır. Sözsüz ki, prosesin davamlı olması

2 www.azerinvest.com/az/invopp.php?pg=investmentclimate

üçün ciddi elmi və innovasiya fəaliyyətinə xidmət edə bilən zəruri istehsal və sosial infrastrukturlar yaradılmalıdır. Bu mənada Sumqayıtda, Gəncədə, Mingəçevirdə texnoparkların, biznes inkubatorlarının, son vaxtlar isə, Masallıda, Hacıqabulda sənaye və aqroparkların, sənaye məhəllələrinin yaradılması diqqəti cəlb etməlidir. Belə elmi-təcrübi strukturlarda elmi-texniki və innovasiya fəaliyyətləri ön sıraya çıxarılır.

**6-cı müddəa: Ölkənin milli iqtisadiyyatının bütün sektorlarının müvazinətli inkişafı üçün tələb olunan həcmdə və strukturda xarici və daxili investisiya resursları ilə milli təsərrüfat subyektləri təmin olunarsa, daxili investisiya resurslarının tərkibində dövlət və özəl investisiyaların birgə yatırması nə qədər genişlənərsə milli iqtisadi və sosial artımın səmərəliliyinə daha çox nail olmaq olar.** İnvestisiya resursları ilə milli təsərrüfat subyektlərinin təmin olunması, bununla da milli investisiya mallarından istifadənin iqtisadi səmərəliliyi nəzərə alınmalıdır.

Fikrimizcə, həmin prosesdə ilkin motiv daxili və xarici investisiyaların iqtisadiyyatın daha səmərəli istehsal sahələrinə yatırılmaq tələbidir. Bu mənada birbaşa investisiya yatırımları ilə əlaqədar milli istehsal artımının, onun sənaye və kənd təsərrüfatı sahələrində son və hazır məhsullar istehsalı həcminin sürətlənməsini nəzərə almaq lazımdır. Yəni sənaye və kənd təsərrüfatı sahələrində texniki-texnoloji bazanın daim yenilənməsi və möhkəmlənməsi istehsalın digər amilləri ilə müqayisədə inkişafa daha çox meylli olur, ümumi iqtisadi inkişafa daha çox güc verir.

Azərbaycan iqtisadiyyatına investisiya yatırmaq istəyən potensial investorlar bir çox müasir yollarla, xüsusən innovasiyaların tətbiqi yolu ilə ölkənin rəqabət qabiliyyətini artıra bilərlər. Bu istiqamətdə potensial investorlar üçün Azərbaycan iqtisadiyyatında formalaşmaqda olan yüksək texnika və texnologiya bölməsinə birbaşa investisiyalar yatırmalarına məhdudiyyətlər azaldılmalıdır. Əgər Azərbaycan iqtisadiyyatında yüksək texnika və texnologiyalar istehsal edən bölmə formalaşarsa və ölkə özünün istehsal etdiyi milli texnologiyalarla son və hazır mallar istehsalını həyata keçirərsə, belə olan halda idxalı əvəz edən milli sahələr tədricən güclənəcək, bununla da idxalı əvəz edən sahələrə xaricdən birbaşa investisiya

axınına daha çox ehtiyac qalmayacaqdır.

Azərbaycanın milli iqtisadi inkişafının perspektivləri belədir ki, milli investisiya qoyuluşları üçün güclü yığım vəsaitinin olduğu şəraitdə milli brendlər istehsalını artırmaq üçün əlavə maliyyələşmə mənbələri tapılmasına ehtiyac yaranacaqdır. Hazırki dövrdən başlayaraq ölkənin son sənaye və hazır məhsullar istehsalı sahələrinin xeyrinə xarici və daxili investisiya qoyuluşlarında struktur dəyişikliklərinin aparılması zəruriliyi vardır.

Milli istehsal sahəsində kifayət qədər təcrübənin olmaması, beynəlxalq rəqabət qabiliyyətinin aşağı olması ölkədə daha səmərəli milli investisiya fəaliyyətinin həyata keçirilməsi imkanlarını azaldır və son nəticədə milli investisiya layihələrinin reallaşdırılmasını məhdudlaşdırır.

Aparılan tədqiqat göstərir ki, Azərbaycanda neft-qaz gəlirləri hesabına milli iqtisadiyyatın kənd təsərrüfatına, emal sənayenin müasir maşın və dəzgahlar, son və hazır məhsullar istehsalı sahələrinə investisiya qoyuluşlarını genişləndirməklə həmin sahələrdə əsas fondların həcmini kifayət dərəcədə artırmaq olar. Emal sənayesinin mövcud əsas fondlarının, xüsusən, ölkədə ilkin xammal və materialları son hazır mallara çevirən texnoloji qurğuları sürətlə yeniləşdirmək, onların müasirləşdirilməsinin artım tempini həmin sahənin potensial imkanlarına uyğunlaşdırmaq tələb olunur.

**7-ci müddəa: Ölkədə sosial-iqtisadi inkişafın milli və beynəlmilli amillərini qarşılıqlı əlaqələndirməklə bazar mexanizminin də milli cəhətləri və xüsusiyyətləri ilə yanaşı ümumi cəhətləri formalaşdırıb milli iqtisadi inkişaf modelinin real əsaslarını yaratmaq olar.** Milli iqtisadiyyatda bazar mexanizminin fəaliyyəti ölkənin sosial-iqtisadi sisteminin bütün sahələrinə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malikdir. Burada əsas məsələ milli iqtisadi inkişafa təsir edəcək xarici və daxili amillərin transformasiyasına əsaslanan bazar mexanizmini elmi və təcrübi əsaslandırma sferasına daxil edib keçmişlə müasir reallığı, iqtisadi inkişafın milli və qlobal amillərini əlaqələndirib gələcəyin mənzərəsini göstərməkdir. İqtisadi fikir tarixi əsaslandırılmışdır ki, istənilən nəzəriyyənin milli kökü olmalıdır. Bu kök üzərində formalaşan və inkişaf edən bazar mexanizmi çox hallarda başqa

şəraitlər üçün əlverişli olmur. Xalqların iqtisadi inkişaf xüsusiyyətlərinin sosial-mədəni ənənələrinin dərin izləri mövcuddur. Milli adət-ənənələrinin birliyinə, iqtisadi davranış stereotipinə, mənəvi inamına əsaslanan belə bir bazar mexanizminin formalaşması və inkişafı ümummilli məqsədlərin aparıcı rol oynamasına şərait yaradır, ölkənin bütün vasitələrini həmin məqsədə çatmaq istiqamətinə yönəltməyi tələb edir.

Milli dövlətçiliyin gücü artdıqca, bazar mexanizminin milli xüsusiyyətləri də genişlənə bilir. Həmin genişlənmənin perspektivləri və əhatə dairəsi bazar tənzimi ilə dövlət tənziminin uyğun nisbətindən asılı olaraq dəyişə bilər. Onlar ölkədə ümummilli problemlərin həlinə köklənən milli iqtisadi artıma və inkişafa daxili hərəkət, enerji, mənəvi zənginlik, psixoloji durum verəcəkdir. Belə bir inkişaf meylini milli etnik köklərlə daha çox qidalanan bazar iqtisadiyyatlı ölkələrin təcrübəsindən də daha aydın görə bilərik.

Fikrimizcə, milli xüsusiyyətli bazar mexanizminin davamlı işləməsi ölkə əhalisinin iqtisadi, siyasi, mənəvi birliyindən, onların birgə fəaliyyət göstərmələrindən çox asılı olur ki, bunun üçün isə həmin mexanizmin aparıcı elementlərinin qarşılıqlı şərtlənməsi və təsirinin gücləndirilməsi çox vacibdir. Ölkəmizdə yaşayış tərzinin dəyərini, əhatə olunduğumuz reallığı, həqiqət və əhalinin fəallığını müşahidə etdikdə tam mənasında həmin proseslərin sürətlə inkişaf etməsini görərik, bunsuz isə, milli xüsusiyyətli bazar mexanizminin perspektivlərindən, onun elementlərinin fəal və sistemli işləməsindən danışmaq olmaz.

Bazar mexanizminin inkişafına dini amilin təsiri modernləşmə yolu ilə avroislam mühitinin təzahür etməsinə daha geniş rezonans verir ki, buna da nəinki müasir türk dilli xalqları və habelə müasir Albaniyanı, Herseqovinanı, Bosniyanı və s. Avropa ölkələrini aid etmək olar. Dünyanın bir çox regionlarında dini və mədəni münasibətlər biri digərini qarşılıqlı şərtləndirməyə doğru meyl edir. Bütün bunlar regionda istehsal-təsərrüfat fəaliyyətinin təşkilində müsəlman qaydalarının tətbiqi çərçivəsində qiymətləndirilməlidir ki, Azərbaycanın iqtisadiyyatında milli xüsusiyyətli bazar mexaniz-minin, onun tərkib elementlərinin fəal, davamlı və səmərəli işləməsinə geniş şərait yarana bilsin. Burada əsas məsələ bütün

resurslara, xüsusən də iqtisadi resurslara münasibətdə israfçılığa yol verməmək üzərində qurulur. Resurslara islam dininin qaydalarında ruzi-sərvət kimi baxılır və cəmiyyətin bütün üzvlərinin ehtiyacını ödəmək məqsədi üçün insanlara bəxş edilib. Azərbaycan iqtisadiyyatında, xüsusən, onun maliyyə sektorunda milli xüsusiyyətli bazar mexanizmi yüksək idarəetmə və innovasiyalı yanaşma şəraitində İslam bankçılığının perspektivlərini nəzərə almaqla, daha çevik və fəal formalaşa bilər. Mənəvi dəyərlər, milli adət-ənənələr müasir və modernləşən bazar mexanizminin yalnız ümumi formasını deyil, daha çox onun daxili struktur elementlərinin fəal işləməsinə təsir edə bilir.

Dissertasiya tədqiqatında irəli sürülən əsas ***Nəticə***lər və təkliflər aşağıdakılardır:

1. Bazar mexanizminin fəaliyyətində özünə yer tapan milli xüsusiyyətlər və onların ölkənin ümumi iqtisadi inkişafına uyğunlaşdırılması iqtisadiyyatın sosial meylinin daha səmərəli modelinin yaradılmasına imkan verir.

2. Transformasiya, qloballaşma və milli iqtisadi inkişaf prosesləri milli birlik ilə iqtisadiyyatın ümumiliyinin qarşılıqlı əlaqəsinin və qarşılıqlı şərtlənməsinin təhlilini tələb edir.

3. Ölkədə iqtisadi əlaqələrin müstəqil inkişafının milli xüsusiyyətləri heç də həmin inkişafın təcridliyini göstərmir, özünəqapanmağa doğru aparmır. Belə halda millilik iqtisadiyyatın, onun bazar mexanizminin formalaşmasının zəruri keyfiyyət tərəfi kimi özünü göstərir, ölkə əhalisinin etnik mental cəhətləri ilə müasir təsərrüfat fəaliyyəti formalarının bütün nailiyyətlərinin üzvi vəhdətində baxılması lazım gəlir.

4. Milli xüsusiyyətli bazar mexanizmi ölkənin istehsal təsərrüfat əlaqələrinin xarici təzahür forması kimi deyil, yalnız sosial məzmunlu milli iqtisadiyyatını formalaşdıran istiqamətverici keyfiyyət amilidir.

5. Müasir şəraitdə milli xüsusiyyətli bazar mexanizminin fəal işləməsinin mühüm istiqaməti milli iqtisadi sistemin yaradılması hesab edilir, onun bütün parametrləri təkrar istehsal mərhələlərinin qarşılıqlı şərtlənməsini təmin edir.

6. Azərbaycanda iqtisadi və sosial inkişafın qarşılıqlı şərtlənməsinə milli iqtisadiyyatın fəal işləməsi çərçivəsində əldə olunan mühüm nailiyyətdən biri kimi baxılmalıdır. Burada eyni zamanda milli adət-ənənələrin dirçəldilməsi vasitəsilə sosial səylərdən geniş istifadə də nəzərdə tutulur.

7. Azərbaycanda transformasiya olunan sosial-iqtisadi quruculuğun birliyinə əsaslanan iqtisadiyyat milli-liberal xüsusiyyət kəsb edəcək, bir tərəfdən ümumi iqtisadi münasibətlərin, digər tərəfdən isə milli iqtisadi münasibətlərin daşıyıcıları olan subyektləri transformasiya edəcəkdir. Milli iqtisadi inkişaf prosesində hər iki tərəfdən olan əlaqələrin transformasiyası mərhələli və ardıcıl olmaqla Azərbaycanın milli-iqtisadi inkişafını daha yüksək səviyyəyə çıxaracaqdır.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:


1. Milli iqtisadiyyatda bazar mexanizmi və onun işlənməsini sürətləndirən başlıca amillər // – Bakı, AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası, – 2013. – s.93-98.
2. Bazar mexanizmində rəqabət amili və onun fəallaşdırılması istiqamətləri // Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin (UNEC) Elmi xəbərləri, – Bakı Oktyabr-Dekabr – 2014. – s.48-61.
3. Сущность и главные стороны национальных экономических особенностей рыночного механизма, // Экономика и предпринимательство, (включен в перечень ВАКа РФ, в базу Agris, в базу РИНЦ), – 2014. № 5 ч.1, – с.60-65.
4. Tələblə təklifin uyğunluğu bazar mexanizminin mühüm elementidir // Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi Konfransının Materialları, Bakı, – 2015, C.1, – s.249-250.
5. Qiymət elementi və onun bazar mexanizminin işləməsinə təsiri. // Azərbaycanın Vergi jurnalı, – 2015. №4(124) İyul-avqust, – s.145-158.

6. Azərbaycanın milli iqtisadiyyatında bazar mexanizminin çevik modelinin formalaşması yolları // Beynəlxalq elmi konfransın materialları, – Sumqayıt, – 27-28 Aprel, – 2016, 1-ci hissə, – s.295-298.
7. Направления усиления влияния рыночного механизма на расширение национальной инвестиционной деятельности // Наука и Бизнес: Пути Развития. Научно-практический журнал İSSN 2221-5182, – 2016. №4(58), – с.23-26.
8. İstehsalla bazarin funksional qarşılıqlı əlaqələnmə vasitələri. // Azərbaycanın İqtisadi İnkişaf Strategiyası mövzusunda Respublika Elmi Konfransının Materialları, – Baki-UNEC, – – Dekabr, – 2019, C.11, – s.223-229.
9. National economic indicators system. // İnternational Conference Digital Economy: Modern Challengess and Real Opportunities, – Baku-UNEC, – 13-14 Fevral – 2020, – s.204-205.
10. National Accounts System. Economic and Social development. // 60th İnternational Scientific Conference on economic and Social Development-XX İnternational Social Congress (ISC 2020). – Moscow, –20-21 Oktyabr, – 2020, – p.154-161.
11. Means of Functional İnteraction of the Market üith Production. Economic and Social development. 60th İnternational Scientific Conference on Economic and Social Development-XX İnternational Social Congress (ISC 2020), – Moscow, – 20-21 Oktyabr, – 2020, – p.25-27.
12. New Approach to Assessment of the Application of a New technology in Dairy and Meat Cattle Breeding. // Economic and Social development. 63rd İnternational Scientific Conference on Economic and Social Development-"Building Resilient Society", – Zagreb, – 11-12 Dekabr, – 2020, – p.315-323.

Dissertasiyanın müdafiəsi 24 noyabr 2021-ci il tarixində saat $11^{00}$ AMEA İqtisadiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115, AMEA-nın İqtisadiyyat İnstitutu

Dissertasiya ilə AMEA-nın İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _________

Kağızın formatı: ________

Həcm: 40085

Tiraj: 100 nüsxə